# Şaiqin sənət yanğısı

**Bu günlərdə respublikanın əməkdar rəssamı, Gəncə Dövlət Universiteti təsviri incəsənət kafedrasının professoru, pedaqogika üzrə fəlsəfə doktoru Şaiq Murtuzəli oğlu Məmmədovun 60 yaşı tamam olmuş, respublikanın əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin onun həyat yolu, bədii yaradıcılığı barədə nəfis tərtibatda 13,75 çap vərəqi həcmində "Sənətkar ömrü" kitabı çapdan çıxmışdır.**

Şaiq Məmmədovun sənət dünyasına nəzər salarkən Leonardo da Vinçinin aşağıdakı sözlərinin nə qədər dəqiq olduğu qənaətinə gəlirsən:

"RƏSSAMLIQ LAL POEZİYA, POEZİYA DANIŞAN RƏSSAMLIQDIR".

Ötən əsrin 70-ci illərinin sonları idi. Məhsəti Gəncəvi adına Gəncə Pedaqoji məktəbinə 22 yaşlı bir gənc müəllim göndərildi. Tovuz rayonunun Samanlıq kəndində (indiki Gədəbəy rayonu) doğulmuş bu gənc oğlan Azərbaycan Dövlət Universitetinin təsviri incəsənət, rəsmxət və əmək təlimi ixtisasını bitirmişdi. Onun gəlişi Gəncə rəngkarlıq aləmində bir canlanma yaratdı. Sərgilərdə yeni üslub, yeni rəngkarlıq nümunələri Şaiqin özünəməxsusluğu ilə seçilirdi. Gəncə Pedaqoji məktəbində səmimi, tələbkar bir müəllim ömrü yaşayırdı. Tələbələr Şaiq müəllim barədə xoş sözlər söyləyirdilər. Çox keçmədi müsabiqə yolu ilə o, Gəncə Dövlət Pedaqoji İnstitutuna müəllim təyin edildi. Yenidən Ş.Məmmədov barədə xoş sözlər eşidildi, sərgilərdə yaradıcılıq nümunələri nümayiş etdirildi. Onun yaradıcılığını izləməyə başladım və 1989-cu ildə "Qobustan" jurnalının 4-cü nömrəsində "Şaiqin sənət yanğısı" sərlövhəli yazımda onun sənət aləminə münasibətimi bildirdim. İndi o vaxtdan 30 ilə yaxın bir müddət keçir

Şaiq Məmmədov bu gün istər sənət aləmində, istərsə də mənim çox müqəddəs saydığım pedaqoji fəaliyyətində öz sözünü demiş, dəyərli nailiyyətlər qazanmışdır.

Ömür yolunu biri-birindən fərəhli, biri-birindən dəyərli naxışlar bəzəyir: "Azərbaycan folkloru" müsabiqə-sərgisində həvəsləndirici diploma layiq görülüb (1993); Bakı şəhərində fərdi yaradıcılıq sərgisi açılıb (1995); "Xalq sənəti və özünüməşğulluq" I sərgi-yarmarkasının qalibi olub (1996); Azərbaycan Rəssamlıq İttifaqına üzv seçilib (1997); elə həmin il "Şagirdlərin əxlaq tərbiyəsində milli dəyərlərdən istifadə" mövzusunda dissertasiya müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcə alıb. Neçə-neçə diplomlar, fəxri fərmanlar sahibi olub. Yaradıcılıq sərgi və müsabiqələrində layiqli yerlər tutub.

Bu zəhmətsevər insan, yaradıcı ömrünün ən yaddaqalan anlarını yaşamış, yeni əsərlərini yaratmış, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti kifayət qədər zəngin, səmərəli olmuşdur. Şaiq Məmmədov müxtəlif miqyaslı çoxsaylı sərgilərin iştirakçısı, dərs vəsaitinin, monoqrafiyanın, metodik göstərişlərin, xeyli elmi-pedaqoji məqalələrin müəllifidir. Müxtəlif vaxtlarda onun haqqında qəzet və jurnallarda məqalələr dərc olunmuş, televiziya verilişləri hazırlanmışdır.

### *Müəllim və alim ömrü*

Düz 38 ildir Şaiq Məmmədov pedaqoji və elmi fəaliyyəti ilə yanaşı sənətkar ömrü yaşayır. Dərs dediyi gənclər arasında böyük rəğbət qazanıb. İndi onun yetirmələrinin özləri püxtələşmiş müəllim, rəngkarlıq bilicisi kimi tanınır, ölkəmizin müxtəlif bölgələrində çalışırlar.

Gəncə Dövlət Universitetində pedaqoji fəaliyyətini uğurla davam etdirməklə el sənətinin metalişləmə kimi qədim növündə yaradıcılıq axtarışları aparması zaman axarında onu bu iki fəaliyyət sahəsini bir araya gətirməyə sövq etdi. "Şagirdlərin əxlaq tərbiyəsində milli dəyərlərdən istifadə" mövzusunda yazdığı dissertasiyasının 1997-ci ildə müvəffəqiyyətlə müdafiə etməsi, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcə alması, sözsüz, gərgin zəhmətin, yuxusuz gecələrin, narahat anların məntiqi nəticəsidir. Alimlik elmi dərəcəsinin alınması ilə bu istiqamətdəki fəaliyyətini bitmiş hesab etmədi. O, davamlı olaraq qələmə aldığı "Təlim prosesində milli dəyərlərdən istifadəyə dair", "Şagirdlərin ədalət tərbiyəsinə dair", "Azərbaycan metalişləmə sənətkarlığı", "Dekorativ rəsmin tədrisində milli ornamentlərdən və xalq sənəti nümunələrindən istifadə", "Bədii metalişləmə", "Gəncə darvazası", "Milli geyimlərimiz", "Müasir Gəncə bədii metalişləmə sənəti nümunələri", "Qədim Gəncənin erkən dəmir dövrünə aid dulusçuluq nümunələrinin ornamentləri haqqında", "Orta əsrlərdə Gəncə metalişləmə sənətində xalqın bədii təfəkkürünün təcəssümü" və onlarla digər elmi məqalələrində el sənətinin tərbiyə gücünü ictimailəşdirməyə çalışmış və məqsədinə nail olmuşdur.

Təsadüfi deyildir ki, 2005-ci ildə onun "Xalq sənətkarlarının yaradıcılıq mərkəzi" İctimai Birliyinin təsis etməsi çox təbii qarşılanmışdır.

Şaiq Məmmədovun 2002-2012-ci illərdə AMEA-nın Gəncə Bölməsində Azərbaycan incəsənəti şöbəsinə rəhbərlik etməsi də onun həyatında xüsusi yer tutur, desək, səhv etmərik.

Ş.Məmmədov Azərbaycan Rəssamlar İttifaqının Gəncədə yaşayıb-yaradan üzvləri arasında ən çox fərdi yaradıcılıq sərgisi təşkil edən sənətkarlardan biridir. Yaradıcılığının günə kimi davam edən qrafik yaradıcılığı təkcə dəzgah qrafikası nümunələrini əhatə etmir. O, xeyli vaxtdır ki, kitab qrafikası sahəsində də fəaliyyət göstərir. İnanmaq istərdik ki, paytaxtda fəaliyyət göstərən naşirlərimiz bu yaradıcı gücə biganə qalmayacaq və onun Gəncə çərçivəsindən çıxmasını şərtləndirəcək, bütünlükdə ölkə kitab qrafikasının inkişafına mənəvi dəstək vermiş olacaqlar



bu cür yüksək səviyyədə təqdimatı, onun əsərlərinin timsalında qədim tarixi və bədii ənənələrə malik Gəncə torpağının el sənətinin əvvəlki qürur doğurduğu şöhrətini müasir dövrdə də qoruyub saxladığının nümayişinə hesablanmışdır. Doğrudan da bu nümunələrin forma-biçim və məna-məzmun baxımından yeni tutumda gerçəkləşməsi həmişə əski ənənələrin tədqiqi və incələnməsinə kökləndiyindən, onların bu gün muzey və şəxsi kolleksiyalarda yer alanları özündə nəzəri-praktiki dəyərləri hifz etdiklərindən, sözün əsil mənasında, elmi qaynaq kimi qəbul olunurlar.

Təxminən 30 il bundan əvvəl Şaiq Məmmədov mənə kustar üsulla özünün hazırladığı bir minialbom bağışlamışdı. Özünün rəsm əsərlərinin fotosurətləri toplanmışdı bu albomda! İstər rəsmlərin illüstrasiyasında, istərsə də minialbomun hazırlanmasında Şaiqin sənət yanğısı duyulurdu. Bu gün artıq onun çoxjanrlı sənət nümunələri dünyanı "gəzir", muzey və şəxsi kolleksiyaları bəzəyir. Hər bir sənət nümunəsində onun gərgin əməyi, qəlbinin pıçıltıları duyulmaqdadır. Ən maraqlısı rəssamın yaradıcılığında bədii xüsusiyyətin Azərbaycan incəsənətində mövcudluğu bilavasitə sənətin müxtəlif sahələrində tətbiq olunan miniatür üslubunun yayılması ilə bağlıdır. Şaiqin "Babaların söhbəti"(1985), "Yaylaqda"(1986), "Nizami dünyası"(1987), "Kərəm yanğısı" (1988), "Ləpələr"(2004) və s. əsərləri onun daim püxtələşən sənət yanğısından xəbər verir. Şaiqin bu

Bu günlərdə Şaiqin emalatxanasına getmişdim. Onun nadir sənət incilərini görəndə və onunla otuz ildən bəri söhbətlərimizdən sonra bir daha inandım ki, o, sənəti ilə mənəvi dünyası harmonik vəhdət təşkil edən bir adamdır. Heç bir məhdud çərçivəyə sığmayan əsərləri ancaq ilhamın və hiss, duyğuların, milli-mənəvi dəyərlərin nəticəsində yaranmışdır. Həddindən artıq təvazökar, özü və sənəti barədə söz salsan susmağa üstünlük verən bu sənət adamının əl işlərinə - əyri qılınc, yapon samuray qılıncı, milli Azərbaycan qılıncı, qaradəstə xəncər, müxtəlif qəmələr, dəstəyi cüyür ayağından olan milli qamçılar, incə, zərif işləməli, naxışlı, müxtəlif qiymətli daşlarla, zümrüd, fürüzə və dağ xrustalları ilə bəzədilmiş qolbağlar, üzüklər, Quranqabı, buynuz-badə, alışqanlar, milli qəlyanlar baxdıqca onun gərgin əməyini və milli mədəniyyətə, xalq tətbiqi dekorativ sənət növünə sonsuz məhəbbətini hiss edirsən.

Tarixən incə naxışlı metal, daş və zərgərlik məmulatı örnəkləri xalqımızın bədii zövqünü oxşamış, arzu və istəkləri sayəsində yaranmışdır. Şaiqin işlərində də onun qəlb çırpıntıları, estetik idealı əks etdirilir. Azərbaycan zərgərlik məmulatı, qəlibçilik, şəbəkəçilik, minasazlıq və qarasavad bəzək üsulları ilə icra olunur. Onun bu üsullarla hazırladığı əsərləri biri-birindən gözəl, biri-birindən naxışlıdır.

Xalqımız üçün xəncər və qılınc şərəf və qeyrət rəmzidir. Xəncərin üzərindəki nazik dolama simlərdən düzəldilmiş şəbəkə adamı valeh edir. Simlər vasitəsilə olduqca incə və yaraşıqlı ornamentlərə dönədönə nəzər salıram. Hamıya yaxşı məlumdur ki, gümüş çox plastik və zərif metaldır. Onu istənilən hala salmaq və üzərində müxtəlif bəzək işləri aparmaq mümkündür. Şaiq gümüşün bu cəhətindən böyük məharətlə, incə zövqlə istifadə etmişdir. Bəzəklərin dekoru gül-çiçək və nəbati ornamentlərdən təşkil edilib. Şəbəkə bəzəyinin kamilliyi gümüş məftillərin incələşdirilməsi ilə əlaqədardır. Şəbəkəçilikdə yaradıcılıq axtarışları üçün geniş imkanlar var. Şaiq şəbəkə formalarını öz istedadı və bacarığı müqabilində hazırlayır, özü istədiyi şəkildə əsər yaradır. Onun əsərlərində sənətkarlığın bədii inkişafı, şəbəkəçilik vərdişinə yüksək dərəcədə yiyələnməsi, parlaq istedadı özünü göstərir. Təsadüfi deyildir ki, o, nəinki qarasavad, hətta şəbəkəçilik, qəlibkarlıq, minasazlıqla hazırlanmış əsərlərin müəllifi kimi çoxdan tanınır.

Əlimdəki əyri xəncərə, onun qınına tamaşa edirəm. Mürəkkəb şəbəkə və xatəmkarlığın vəhdətindən istifadə vasitəsilə yüksk zövqlə düzəldilmiş bu bəzəklərdə füruzəyi daşların yerləşdirilməsi onları daha cazibədar edib.

Gümüşbəndlik, zərgərlik Azərbaycan xalqının ən qədim el sənətidir. Sevindirici haldır ki, əməkdar rəssam Şaiq Məmmədov yaratdığı sənət incilərində keçmiş sənətkarların unudulmaz ənənələrini yaşatmaqla yanaşı, onu yeni tapıntılarla daha da zənginləşdirir, özünəməxsus sənət nümunələri yaradır. Dünyanın bir çox muzeylərində, şəxsi kolleksiyalarda saxlanan əsərləri Şaiq Məmmədovun kamil bir sənətkar olduğunu sübut edir.

Rəssamı düşündürən odur ki, metal üzərinə naxış vurmaq, xəncər, bıçaq, qılınc hazırlamaq kimi qədim sənətimiz qayğısızlıq üzündən unudulur. Bundan isə başqa xalqlar, elə üzdəniraq qonşularımız məharətlə istifadə edirlər. Bir də deyir ki, gümüşbəndlik sənətinin inciləri, milli silah nümunələri dünya sərgi salonlarında layiqli yerini tutmalı, bu qədim sənət növü inkişaf etdirilməlidir. Buna isə maliyyə dəstəyi gərəkdir.

**Beləcə, 60 yaşın aşırımında professor Şaiq Məmmədovun sənət dünyasında bir daha əmin oldum ki, Leonardo da Vinçinin sözlərində bir həqiqət var: Rəssamlıq lal poeziya, poeziya danışan rəssamlıqdır.**

**Füzuli RÜZİGAR**